# "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 25-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 7, maddə 779; 2016, № 1, maddə 21, № 2 (I kitab), maddə 206, № 6, maddə 972; 2017, № 3, maddə 340; 2019, № 5, maddə 802; 2021, № 10, maddə 1091; 2022, № 1, maddə 8) aşağıdakı dəyişikliklər edilsin:

1. Aşağıdakı məzmunda 7.4-cü maddə əlavə edilsin:

"7.4. Malların gömrük dəyərinin müəyyən edilməsi sadə və ədalətli meyarlara əsaslanmalı və gömrük dəyərləndirilməsinin prosedurları malların təchizat mənbələrindən asılı olaraq fərqlənməməlidir.".

2. 8.3-cü maddəyə "müəyyən edilməsi" sözlərindən sonra "bu Qanunun 7.1-ci maddəsi nəzərə alınmaqla" sözləri əlavə edilsin.

3. 10.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

"10.2. Bəyannaməçinin gömrük orqanına təqdim etdiyi gömrük bəyannaməsi təqdim edildiyi tarixdən 1 (bir) gün müddətində gömrük orqanı tərəfindən bəyan edilmiş malın gömrük dəyərini dəqiqləşdirmək zərurəti ilə əlaqədar olaraq təsdiq edilmədikdə, bəyannaməçi malların buraxılışının həyata keçirilməsi ilə bağlı gömrük orqanına yazılı, o cümlədən elektron formada müraciət edə bilər. Həmin müraciətə Gömrük Məcəlləsi ilə müəyyən edilmiş qaydada baxılır.".

4. 11.2-ci maddənin birinci cümləsinə "yazılı" sözündən sonra ", o cümlədən elektron" sözləri və həmin maddəyə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

"Buraxılışı həyata keçirilməmiş malların gömrük dəyərinə müvafiq düzəlişlər edilməsinə dair bildiriş həmin mallarla bağlı gömrük bəyannaməsinin gömrük orqanına təqdim edildiyi andan ən geci 24 saat müddətində bəyannaməçiyə təqdim edilməlidir.".

5. Aşağıdakı məzmunda 12.4-cü maddə əlavə edilsin:

"12.4. Gömrük dəyərinin müəyyən edilməsi üsullarının tətbiqinə dair qaydalar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunur.".

6. 13.6-cı maddənin üçüncü cümləsinə "yazılı surətdə" sözlərindən sonra ", o cümlədən elektron formada" sözləri əlavə edilsin.

7. 18.3-cü maddəyə "yazılı" sözündən sonra ", o cümlədən elektron" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 dekabr 2022-ci il*